“Təsdiq edirəm”
Azərbaycan Dövlət
Pedaqoji Universitetinin rektoru
_____________ t.e.d., prof. C.M.Cəfərov
“04” Fevral 2025-ci il

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Pedaqoji Universiteti

# Təlim-tədris siyasəti

- Təhsil və təlim sahəsində beynəlxalq standartlara uyğun davamlı, innovativ və texnoloji cəhətdən qabaqcıl proqram, məzmun və yanaşmaları həyata keçirmək, müasir tələblərə cavab verən peşəkar məzunlar hazırlamaq;
- Azərbaycançılıq tərbiyəsinin formalaşması ilə yanaşı, məzunların xarici dil biliklərinin və rəqəmsal bacarıqlarının yüksək səviyyədə inkişaf etdirilməsinə nail olmaq;
- Təlim-tədris prosesində ESG standartlarını əsas götürərək keyfiyyətin davamlı şəkildə yüksəldilməsini təmin etmək;
- Elmi inkişafa töhfə verən, fənlərarası komanda işinə meylli, insan və iqtisadi əlavə dəyəri yaradan və dəyişikliklərə təsir edə bilən fərdlər yetişdirmək;
- Davamlı təkmilləşdirmə və yüksək tətbiq bacarıqlarına əsaslanan aktiv öyrənmə yanaşmasının qəbul edilməsi;
- Şəxsi və sosial inkişafı dəstəkləyən təhsil və təlim mühitinin yaradılması;
- Müvəffəqiyyətin monitorinqi və qiymətləndirilməsi prosesində bilik və bacarıqların əsaslarının mənimsənilməsini prioritet götürmək;
- Təhsil və təlim proseslərini PDCA dövriyyə modeli əsasında (PDCA – Plan- planlaşdırma, Do-etmək, Check- nəzarət etmək, Act- fəaliyyət göstərmək) idarə etmək;
- Tədris prosesinin elektronlaşdırılmasına nail olmaq;
- Təlim-tədris prosesində inklüziv təhsil modelinin tətbiqi ilə yanaşı, təhsil alanların və təhsil verənlərin prosesdə iştirakının inklüzivlik prinsiplərinə uyğun təmin etmək;
- Davamlı inkişaf məqsədlərinin məzmunda ixtisasa uyğun formada tətbiqini dəstəkləmək;
- İlk növbədə dəqiq elmlərdə, sonrakı mərhələdə bütün ixtisaslar üzrə STEAM fənnləri vasitəsilə fənlərarası yanaşmanı genişləndirmək;
- Tələbə mərkəzli yanaşma ilə, daha çox müstəqil öyrənmə bacarıqlarının artırılmasına xidmət edən layihə(tədqiqat) və problem əsaslı öyrənməni genişləndirmək;

Scanned with CamScanner

- Dünyada və ölkədəki pandemiya şəraitini nəzərə alaraq, distant təhsil infrastrukturunun gücləndirilməsi, professor-müəllim heyətinin rəqəmsal bacarıqlarının (DigCompEdu standartlarına uyğun olaraq) artırılması və tədris məzmununun əlçatanlığını artırmaq üçün Moodle kabinetlərinin bütün müəllimlər və fənlər üzrə keyfiyyətli şəkildə tertibinə nail olmaq;
- İkili diplom proqramlarının sayının və çoğrafiyasının genişləndirilməsi yolu ilə beynəlxalq təlim-tədris məhsullarının formalaşmasına nail olmaq;
- Professor-müəllim heyətinin müntəzəm ixtisasartırmasını təmin etmək məqsədilə sistemli və davamlı işlər həyata keçirmək;
- Təhsil sektorunun ehtiyaclarına görə dərəcə proqramları ilə yanaşı, sertifikat proqramları da təklif edir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Təhsil proqramlarının nəticələrinin monitorinqi üzrə**
**strategiya və fəaliyyət planı**

## 1. Tədris keyfiyyətinin artırılması

***Məqsəd:*** *Dinamik və cəlbedici öyrənmə mühitini inkişaf etdirmək üçün tədrisin keyfiyyətini yüksəltmək.*

**Fəaliyyətlər:**

- Fakültələrin inkişaf proqramlarının pedaqoji innovasiyaların öyrənilməsi və tətbiqinə yönəlməsi.
- Müasir təlim metodlarının, o cümlədən texnologiya ilə gücləndirilmiş təlimin mənimsənilməsinin təşviq edilməsi.
- Tədris və təlim işinin davamlı olaraq təkmilləşdirilməsi üçün qarşılıqlı (ekspert) rəy mexanizmlərinin yaradılması.

**Ölçülə bilən meyarlar:**

- Tədris qiymətləndirmələri zamanı artan tələbə məmnuniyyəti göstəriciləri.
- Daha yüksək mənimsəmə və müvəffəqiyyət nisbətləri.

## 2. Təhsil proqramlarının və tədris planlarının uyğunluğunun və müasirliyinin təmin edilməsi

***Məqsəd:*** *Məzmunun aktuallığını artırmaq üçün təhsil proqramlarının və tədris planlarının əmək bazarının tələblərinə, inkişaf meyllərinə və qlobal standartlara uyğunlaşdırılması.*

**Fəaliyyətlər:**

Scanned with CamScanner

- İnkişaf etməkdə olan tendensiyaları və texnologiyaları daxil etmək üçün təhsil proqramlarının ən geci 5 ildə bir dəfə, tədris planlarının ildə bir dəfə və sillabuslarının hər semestrin əvvəlində nəzərdən keçirilməsi və yenilənməsi.
- Tələbə müstəqil tədqiqat layihələrinin sayının artırılması.
- Təhsil proqramlarının, tədris planlarının və sillabuslarının tərtibi zamanı əmək bazarından olan tərəfdaşlar ilə əməkdaşlıq, onların əmək bazarının ehtiyaclarına və yeni texnoloji inkişaflara uyğunluq baxımından tərtibi.
- Praktik və real dünya təcrübələrinin və rəqəmsal alətlərin tələbə layihələrinə inteqrasiyası.

**Ölçülə bilən meyarlar:**

- Məzunların məşğulluq dərəcələri.
- Əmək bazarının və sənaye nümayəndələrinin rəyi və əməkdaşlıq göstəriciləri.

## 3. İnklüzivliyin və müxtəlifliyin təşviqi

**Məqsəd:** Müxtəlifliyə yönəlmiş və müxtəlif öyrənmə üslublarını özündə cəmləşdirən inklüziv öyrənmə mühitini inkişaf etdirmək.

**Fəaliyyətlər:**

- İnklüziv tədris təcrübələrinin həyata keçirilməsi.
- Müxtəlif tələbə ehtiyacları üçün dəstək xidmətlərinin göstərilməsi.
- Mədəni müxtəlifliyə cavab verən tədris planlarının inkişafının təşviq edilməsi.
- Xüsusi qayğıya ehtiyacı olanlara təhsildə əlçatanlığın artırılması.
- Xüsusi istedadlı tələbələrə yönəlmiş proqramların və əlavə fakültətiv dərslərin formalaşdırılması.
- Əcnəbi tələbələrə yönəlmiş adaptasiya proqramlarının təşkili.
- Sosial həssas qrupdan olan təhsilalanlara yönəlmiş dəstək layihələrinin həyata keçirilməsi.
- Akademik göstəriciləri zəif olan tələbələrlə əlavə işin təşkili.

**Ölçülə bilən meyarlar:**

- Tələbə qəbulunda müxtəlifliyin təmsil olunması.

Scanned with CamScanner

- Əcnəbi tələbələrin sayının artırılması.
- Sosial səbəblərdən təlim prosesindən yayınmaların azalması.
- Tələbələrin inklüzivlik tədbirlərindən məmnunluğu.

## 4. Davamlı qiymətləndirmə və əks-əlaqə

***Məqsəd:*** *Tələbələrin akademik irəliləyişinə nəzarət etmək və vaxtında rəy bildirmək (əks əlaqə) üçün etibarlı qiymətləndirmə sistemini tətbiq etmək.*

**Fəaliyyətlər:**

- Aralıq və cari qiymətləndirmələr.
- Qiymətləndirməni müntəzəm olaraq təkmilləşdirmək.
- Tələbə biliyinin və bacarıqlarının qiymətləndirmələrini çeşidləndirmək.
- Səmərəli qiymətləndirmə və əks əlaqə üçün texnologiyadan istifadə.
- Tələbələrin rəy sorğularını həyata keçirmək və alınan rəylərə uyğun hərəkət etmək.

**Ölçülə bilən meyarlar:**

- Tələbələrin müvəffəqiyyət və keyfiyyət nisbətlərinin yaxşılaşdırılması.
- Aralıq və cari qiymətləndirmənin uyğunluğunun artması.
- Tələbə rəyində müsbət tendensiyalar.

## İcra və Monitorinq

Təlim-tədris siyasətinə əsasən "Təhsil proqramlarının nəticələrinin monitorinqi üzrə strategiya və fəaliyyət planı" Tədris Departamentinin koordinasiyası ilə fakültələr və kafedralar tərəfindən həyata keçirilir. İcra Keyfiyyət Komissiyası, fakültə Elmi-metodiki qrupları və univeristetin Elmi-metodiki şurası tərəfindən monitorinq edilir. Qəbul planının verilməsi, tələbə qəbulunun nəticələri, tələbə köçürmələrinin nəticələri, aralıq və cari qiymətləndirmə nəticələri, normativ müddətdə təhsilini başa vura bilməyənlər, tələbə transfer nəticələri, təhsilini yarım qoyan tələbələrin sayı və səbəbləri, məzunların ixtisas və ümumi məşğulluğu, təhsilin növbəti pilllərinə qəbul imtahan nəticələri, əcnəbi tələbə sayı, tələbə və müəllim mobilliyi, inklüziv və akademik göstəriciləri zəif olan tələbələrin sayı və nisbəti, tələbə sorğularının dinamikada baxılması və s. göstəricilər əsasında

Scanned with CamScanner

hazırlanmış hesabatların fakültələr səviyyəsində Elmi-metodiki qrup, fakültə Elmi Şurası, universitet səviyyəsində Elmi-metodiki şura, Keyfiyyət təminatı Komissiyası, Himayəçilər Şurası və Elmi Şura səviyyəsində müzakirə edilir.

**Baxış və təkmilləşdirmə**

Təlim-tədris siyasəti və "Təhsil proqramlarının nəticələrinin monitorinqi üzrə strategiya və fəaliyyət planı" dəyişən təhsil şəraitinə və institusional ehtiyaclara uyğunlaşmaq və çevikliyin təmin olunması üçün fakültələrin və digər maraqlı tərəflərin təklifləri əsasında Tədris Departamentinin hazırladığı təqdimata uyğun olaraq Elmi-metodiki şurada müzakirə edilə və Elmi Şuranın qərarı ilə yenilənə bilər.

Scanned with CamScanner